# Holcim Azərbaycan

*Sement istehsalında dünya lideri!*

*+995 12 441 88 88*
*+99451 250 54 54 (Müştəri xidməti)*

Holcim Azərbaycan ASC
Bakı, Sahil qəsəbəsi, Salyan şossesi
Azərbaycan, AZ 1083

www.holcim.az
customer-aze@lafargeholcim.com

Holcim Plus proqramının qeydiyyat linki:
http://plus.holcim.az/

*1010

# Holcim

A member of LafargeHolcim

Sement istehsalında dünya lideri!

# *Qaradağ Unikal*

CEM II/A-L 32.5 R

*AQUASTOP texnologiyası*




Texniki məlumat broşuru

# Qaradağ Unikal

## Universal təyinatlı hidrofob sement

Qaradağ Unikal sementi nəmdən və sudan müdafiəyə ehtiyacı olan bütün iş növləri üçün nəzərdə tutulub. Yeni AQUASTOP texnologiyası sayəsində inşa edilən tikili nəmdən və sudan tam müdafiə olunur və eviniz uzun müddət sizə xidmət edir. Beləcə həm sement, həm də izolyasiya üçün ayrıca xərc çəkmədən ənənəvi metodlarla müqayisədə büdcənizə 50%-dək qənaət etmiş olursunuz. Bu texnologiya beton, suvaq, hörgü və digər qarışıqların sıxlığını əhəmiyyətli dərəcədə artırmaqla tikintidə boşluqların, məsamələrin və çatların yaranmasının qarşısını alır.

## Tövsiyə olunan istifadə sahələri

- Azmərtəbəli fərdi evlərin beton konstruksiyaları (bünövrə, sütunlar, dayaqlar, kəmərlər)
- Daş və kərpic divarların və arakəsmələrin hörgüsü
- Xarici suvaq işləri
- Nəm məkanlarda daxili suvaq işləri
- Döşəməaltı qatlar
- Düz (üfüqi) damların hidroizolyasiyası
- Su hovuzları, quyular
- Binanın fasad elementlərinin yapışdırılması
- Orta möhkəmlik sinfinə (B25-dək) aid betonlar

**Tətbiq sahələri:** ***Nəmdən və sudan müdafiəyə ehtiyac olan bütün iş növləri***

## Standartlar:

- CEM II/A-L 32,5 R
- AZS 411:2010
- EN 197-1:2000

## Sərfiyyat:

- 6 m2 hamar sahəni

2-2.5 sm qalınlığında suvaqla əhatə etmək üçün 1 kisə 40 kq Spesial məhsulu sərf olunur

- Qaradağ Unikal yeni AQUASTOP texnologiyası sayəsində binanın konstruktiv elementlərini nəmdən və sudan tam müdafiə edir.

*Nəm və sudan tam müdafiə*

- AQUASTOP texnologiyası beton, suvaq, hörgü və digər qarışıqların sıxlığını əhəmiyyətli dərəcədə artırmaqla mikroboşluqların, məsamələrin və mikroçatların yaranmasına yol vermir.

*Uzunömürlü tikililər*

- Tikintidə nəm və sudan qorunmaq üçün ənənəvi həllər ilə müqayisədə xərclərə 50%-dək qənaət etmis olursunuz.

*50%-dək qənaət*

## Tövsiyə olunan qarışıqların hazırlanması (1 kisə sement üçün)

| Tətbiqi | Sement | Qum | Çınqıl |
|---|---|---|---|
| | x 1 | x 6 | x 10 |
| | x 1 | x 7 | x 12 |
| | x 1 | x 4 | x 7 |
| | x 1 | x 12 | — |
| | x 1 | x 10 | — |

Su miqdarı məhlulun lazımi axarlığına görə müəyyən edilir

Kisənin çəkisi – 40 kq  Vedrənin həcmi – 10 lt  / Eynicinsli məhlul əldə etmək üçün mexaniki beton qarışdırıcı maşınından istifadə etmək tövsiyə edilir.

**6 AY** **Sementin keyfiyyətinə zəmanət müddəti onun istəhsalından sonra 6 aydır. (Daşınma və saxlanma qaydalarına əməl olunmaqla)**

## Tövsiyə və məsləhətlər

1. Ancaq 2 saat ərzində istifadə edə biləcəyiniz qədər palçıq (hörgü-suvaq) qarışığı hazırlayın.
2. Tələb olunandan artıq su əlavə etməyin, çünki bu son möhkəmlik göstəricisini aşağı sala bilər.
3. Sağlamlığınıza zərər vurmamaq üçün kisələri düzgün qaydada götürün.



## Qarışdırma, saxlama və təhlükəsizlik qaydaları

**Qarışdırma və Təhlükəsizlik Qaydaları**

- Məhlul hazırlamaq üçün suyu əlavə etməzdən əvvəl quru tərkib hissələrini əsaslı şəkildə qarışdırın.
- Sement tozunun və ya qarışdırılmış məhlulun gözlərə və nəfəs yollarına düşməsinin, və dəriyə toxunmasının qarşısını alın. Bu məqsədlə xüsusi eynəklərdən, respiratordan və xüsusi əlcəklərdən istifadə edin.
- Uşaqlardan uzaq tutun.

**Saxlanma Qaydaları**

60 GÜN
- Sementin keyfiyyətinə zəmanət müddəti onun istehsalından sonra 60 gündür. (daşınma və saxlanma qaydalarına əməl olunmaqla)
- Sement kisələri nəm və rütubətdən qorunmalı, paletlər və ya taxta lövhələr üzərində saxlanmalıdır.

1,8 METR
- Sement kisələrinin yığıldığı qalaqların hündürlüyü 1.8 m-dən artıq olmamalıdır.
- **Sement kisələri paletlər və taxta lövhələr üzərində saxlanmalıdır.**